AMEA-nın İNSAN HÜQUQLARI
ELMİ TƏDQİQAT İNSTİTUTU

GÜLZAR İBRAHİMOVA

# AZƏRBAYCAN QADINI:
# TARİX VƏ GERÇƏKLİK

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

BAKI-«ELM»-2009

**Elmi redaktor və ön sözün müəllifi:**
*Hicran Hüseynova,*
BDU-nun Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrasının müdiri, siyasi elmlər doktoru, professor

**Rəyçilər:**
*Cahangir Məmmədli,*
BDU-nun Jurnalistkanın nəzəriyyəsi və təcrübəsi kafedrasının müdiri, filologiya elmləri doktoru
*Nizami Cəfərov,*
BDU-nun Ümumi dilçilik kafedrasının müdiri, Əməkdar Elm Xadimi, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor

**Gülzar İbrahimova.** Azərbaycan qadını: Tarix və Gerçəklik.
Bakı: «Elm», 2009, 500 s.
ISBN 978-9952-453-03-4

*Gülzar İbrahimovanın bu monoqrafiyası müəllifin Azərbaycanda qadın problemləri sahəsində ardıcıl olaraq apardığı elmi araşdırmaların məhsuludur. Araşdırmanın mühüm yeniliklərindən biri seçilmiş problemin Azərbaycan milli siyasətşünaslığı və tarixşünaslığında ilk dəfə olaraq kompleks şəkildə xronoloji ardıcıllıqla işlənməsidir. Əminik ki, kitab yeni yanaşma tərzi ilə milli (müstəqil) dövlətçilik uğrunda mübarizədə və milli varlığın dərk edilməsi, qorunması prosesində xalqın mənəviyyatı və mədəniyyətinin, tarixi-mədəni keçmişinin öyrənilməsində mühüm vasitə olacaq, mövcud ənənəvi problemlərin həlli zamanı digər məsələlərlə yanaşı, Azərbaycanda qadın məsələsinin iqtisadi, sosioloji, siyasi və hüquqi aspektlərini tarix və gerçəklik kontekstində tədqiqinə kömək göstərəcəkdir.*

İ $\frac{0302000000}{655/07/-2009}$ Qrifli nəşr

© *G. İ. İbrahimova, 2009*



# ÖN SÖZ

Tarixi inkişafın bütün dövrlərində qadın insanlığın mövcudluğu və inkişafı yolunda əvəzedilməz rol oynamışdır. Müxtəlif zaman və məkanlarda isə tarixi tərəqqiyə təkan verən iki əsas qüvvədən biri olan qadına fərqli münasibət bəslənmişdir. Tarixə diqqətlə nəzər salanda görürük ki, qadın məsələsi demək olar ki, Azərbaycanda da aktual olmuş, xüsusən də, XIX əsrin sonu-XX əsrin əvvəllərindən başlayaraq qadın problemlərinin həlli istiqamətində müəyyən addımlar atılmışdır. Ötən əsrin 60-cı illərindən müasir Azərbaycanda ictimai, sosial-siyasi, maddi-mənəvi həyatın bütün sahələrində baş verən dəyişikliklər və onların yeni dəyərlər qazanmaqla insanların düşüncə tərzinə təsiri böyük mütəfəkkir-ideoloq, Ulu Öndər Heydər Əliyevin əməli fəaliyyətinin nəticəsidir. Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə o, qadın problemini diqqət mərkəzində saxlamışdır. Məhz onun şəxsi təşəbbüsü sayəsində qadın məsələlərinin beynəlxalq standartlara müvafiq inkişafı üçün 4-cü Ümumdünya Qadınlar Konfransına (Pekin 1995) hazırlıq məqsədi ilə 1994-cü il sentyabrın 15-də Prezident Fərmanına əsasən Azərbaycan qadınlarının Milli Hazırlıq Komitəsi yaradıldı. Bu işdə həyata keçirilən ardıcıl, silsilə və davamlı tədbirlər 1998-ci il yanvarın 14-də Prezident Fərmanı ilə QPDK-nın yaranması ilə nəticələndi. 2000-ci il martın 6-da imzalanmış «Azərbaycan Respublikasında Dövlət Qadın Siyasətinin Həyata Keçirilməsi haqqında» Prezident Fərmanının icrası ilə bağlı NK-nın müvafiq qərarı qəbul edildi və Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı təsdiq edildi. Milli Fəaliyyət Planı nazirliklər, dövlət komitələri, QHT-lərin birgə işi olaraq, Pekin Fəaliyyət Platformasının müvafiq 12 strateji məqsədi üzrə tədbirlərin görülməsini nəzərdə tuturdu. Dövlətin qadın problemlərinə diqqəti və xüsusi qayğısının təzahürü kimi bu dövr verilən Fərman və Sərəncamlar qadınların imkanlarının genişləndirilməsi sahəsində dövlət strategiyasının əsasını qoydu. Bu gün Ümummilli Lider Heydər Əliyevin siyasi varisi, Azərbaycan Respublikası Prezidenti İlham Əliyev dövrün tələblərinə uyğun olaraq daha yeni və müasir ideologiyalarla, irəli sürdüyü konkret təkliflərlə Azərbaycanda dövlət qadın siyasətinin həyata keçirilməsini müsbət istiqamətdə inkişaf etdirir, Azərbaycan cəmiyyətində qa-

dınların xüsusi çəkisinin artmasına və qadın hərəkatının dinamik yüksəlişinə geniş siyasi meydan yaradır.

Azərbaycanda qadın siyasətinin yeni yanaşma tərzi ilə dövlət qadın siyasəti kimi mükəmməl formada həyata keçirilməsi millət kimi mövcudluğumuzun, milli dövlətçilik ənənələrimizin ideoloji əsaslarından qaynaqlanır və bu sahədə siyasi paradiqmanın dəyişməsi zamanın intellektual tələblərindəndir. «Azərbaycan qadını: Tarix və Gerçəklik» monoqrafiyasında problemin Azərbaycan tarixinin bu və ya digər dövrü əsasında deyil, qədim zamanlardan müasir dövrədək – bugünümüzə qədər olan tarixi müddətdə araşdırılma aparılmışdır. Belə bir yolun seçilməsi isə problemin dinamikasının izlənilməsi, sistemli şəkildə əsas dövrlər üzrə və müasir vəziyyətinin müəyyən edilməsi, siyasi hakimiyyət və dövlətin mahiyyətində spesifik məsələlərdən sayılan siyasət – qadın şəxsiyyəti, siyasət və əxlaqın, siyasət və dinin qarşılıqlı əlaqəsinin qadınlar üçün səciyyəvi xüsusiyyətlərinin öyrənilməsi səviyyəsi və i. a səbəblərlə şərtlənmişdir. Müəllif tarixi dövrlər üzrə Azərbaycan qadınının ailədə və məişətdə, ədəbi-mədəni yaradıcılıq məkanında, ictimai-siyasi həyatda, sosial-iqtisadi-siyasi proseslərin həlli uğrunda mübarizədə iştirakını şərh etdikcə hadisələri oxucuya tam səmimiyyətlə, real faktlarla tədqiqatçı – şərhçi texnologiyası ilə təqdim etməyə çalışmışdır.

Əsərin hər bir fəslində ayrı-ayrı yarımfəsillərlə mövcud problem önə gətirilmiş, qarşıya qoyulan əsas məqsədi çatdırmaq üçün konkret elmi vəzifələrin həllinə cəhd göstərilmişdir. Fərqli zaman və məkanlarda yaranan tarixi şəraitdə müəyyən məqsədin və məsləkin daşıyıcısı olan Azərbaycan qadınının dövlətin idarə edilməsində və xarici siyasətdə silinməz iz qoyduğu göstərilmiş, onların məxsus olduqları xalqın ictimai-siyasi təfəkkürünü layaqətlə ifadə etdiyini və müasir azərbaycanlı qadın təfəkkürünün – özünəməxsus ictimai hadisənin varisi hesab edilə bilməsi qənaətinə gəlinmişdir. Monoqrafiyada bütün dövrlər üzrə Azərbaycanda qadın siyasəti xronoloji ardıcıllıqla müxtəlif ədəbiyyat və mənbələrə istinadən araşdırılmış, eyni zamanda Azərbaycanda qadının maariflənməsi, peşəkar səhnəyə gəlişi, xeyriyyəçiliyi hadisə olaraq mədəniyyətin qələbəsi kimi şərh edilmiş, Azərbaycan musiqi və milli teatrının inkişafı yolunda qadınların özünəməxsus yeri və yaradıcılıq qabiliyyətləri təhlil edilmiş,





milli-mədəni azadlıq uğrunda mübarizədə bu faktorun mühüm göstərici olduğu qeyd edilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı ilk gündən dövlətin strateji fəaliyyətinin mühüm istiqamətlərindən biri kimi qadın siyasətinin önəmi, elm və təhsilin inkişafında qadına verilən yer, qadının ictimai-siyasi və ədəbi-mədəni mühitdə mövqe və rolu ilkin mənbələrə istinadən tədqiq edilmişdir. Sovetlər dönəmində, xüsusilə də, 1920-1945-ci illər əhatəsində Azərbaycan qadınının özünügerçəkləşdirməsi və sovet imperiya siyasətinin xarakteri çoxsaylı arxiv materialları əsasında obyektiv şəkildə tədqiq edilərək sovet «hüquq bərabərliyi»nin təzadları, sovet rejiminin Şimali Azərbaycanda həyata keçirdiyi iqtisadi siyasət və onun qadınlara təsiri, Azərbaycan qadınının maariflənməsinin sovet mərhələsi, Böyük Vətən Müharibəsi illərində Azərbaycan qadınının iştirakı olduğu kimi, tam gerçəkliyi ilə oxuculara təqdim olunmuşdur.

Monoqrafiyada Heydər Əliyev idarəçilik sistemində reallaşan qadın siyasəti faktoloji materiallarla Azərbaycan qadınlarının həyatında mühüm bir hadisə kimi şərh edilmiş, dövlət qadın siyasətində beynəlxalq norma və prinsiplərin tətbiqi istiqamətində atılan uğurlu addımlar təhlil edilmiş, AQUPDK-nın yaranması uşaqlara, gənclərə və ailəyə dövlət qayğısının təzahürü kimi qiymətləndirilmişdir.

Müəllif müasir dövrdə ayrı-ayrı sferalar üzrə qəbul edilən sənədlərin ümumi səciyyəsini verməklə bu istiqamətdə həyata keçirilən tədbirlərin dolğun mənzərəsini yaratmışdır. Belə ki, Azərbaycanda Pekin Fəaliyyət Platformasının müvafiq 12 strateji məqsədi üzrə görülmüş geniş miqyaslı məqsədyönlü fəaliyyətə aydınlıq gətirmiş, yoxsulluğun azaldılması üzrə strategiya çərçivəsində məşğulluq, təhsil, səhiyyə, zorakılıq, qaçqınlar və məcburi köçkünlər, yeniyetmə qızlar, qərar qəbuletmə prosesi və s. sahələrdə qadınlarla bağlı məsələləri şərh etmişdir. Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı (2000-2005) və Azərbaycan Hökumətində onun həyata keçirilməsinə təsir edən bir sıra faktorlar, «Gender bərabərliyinin təminatları haqqında» Azərbaycan Respublikası Qanununun həyata keçirilmə prinsipləri açıqlanmışdır. Monoqrafiyada ailədə uşaqların sağlam böyüməsi, onların mənəvi-fiziki kamilliyə çatması, dövlət uşaq müəssisələrində olan uşaqların ailələrə verilməsi mexanizminin yaradılması və s. məsələlərin yerinə yetirilməsi ilə əlaqədar

Azərbaycan dövlətinin ölkə daxilində qəbul etdiyi bir sıra proqram və sənədlər, həmçinin bu sahədə xarici dövlətlərlə bağlanmış beynəlxalq miqyaslı sazişlər öz əksini tapmışdır.

Monoqrafiyada Heydər Əliyev ənənələrinə sadiqlik prizmasında ölkəmizin **Birinci Xanımı**, millət vəkili **Mehriban Əliyevanın** Azərbaycan qadınının beynəlxalq aləmdə özünü tanıtmaq faktı, liderlik qabiliyyəti, şəxsiyyətinin sosial-fəlsəfi analizi və Azərbaycanda dövlət qadın siyasətinin iştirakçısı kimi əməli fəaliyyəti ətraflı şərh edilmişdir. Müəllif monoqrafiyada əminliklə belə bir qənaətə gəlmişdir ki, müasir dövrün obyektiv şəraiti və sosial mühiti Azərbaycan qadınının dövlətin gələcək idarəetmə sistemində də layiqli sözünü deyə biləcək bir şəxsiyyət kimi formalaşması və inkişafı üçün möhkəm baza yaratmışdır. Bu baxımdan Mehriban Əliyevanın çoxşaxəli fəaliyyəti hamı tərəfindən qəbul edilir, əhəmiyyətli xarakter daşıyır və dövrün mühüm tələbi kimi ölkədə həyata keçirilən dövlət qadın siyasətinin elementlərini özündə ehtiva edir.

Monoqrafiyanın əhatə etdiyi dövrün ictimai-siyasi mənzərəsini daha dolğun işıqlandırmaq məqsədilə müəllif, Azərbaycanın müxtəlif tədqiqatçılarının bu inkişaf mərhələlərini əhatə edən əsərlərini, elmi məqalələrini və dissertasiyalarını nəzərdən keçirmiş, onlara polemik ruhda yanaşmış, mövzunun daha geniş aspektdə işlənməsinə cəhd göstərmişdir.

O, araşdırmanın mühüm yeniliklərindən biri kimi seçilmiş problemin Azərbaycan milli siyasətşünaslığı və tarixşünaslığında ilk dəfə olaraq kompleks şəkildə xronoloji ardıcıllıqla işləmişdir.

Qarşıya qoyulan məqsəd və vəzifələri həll etmək üçün Azərbaycan Respublikasında qadın problemləri ilə bağlı normativ hüquqi aktlar və digər mənbələr araşdırılmış və təhlil edilmişdir. Monoqrafiyanın mənbəşünaslıq bazası sırasında Ulu Öndər Heydər Əliyevin məruzə, çıxış, tövsiyə və göstərişləri, habelə Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamları, Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi qanunlar, Azərbaycan Respublikası Nazirlər Kabineti, bir sıra nazirliklər, dövlət komitələri və b. dövlət idarələrinin sənədləri, beynəlxalq təşkilatların qərar və tövsiyələri və s. mühüm əhəmiyyət kəsb edir. Tədqiqatın mənbə bazası üçün həmçinin istər çar Rusiyasının müstəmləkə əsarəti, istər Azərbaycan Xalq





Cümhuriyyəti, istər sovetlər dövləti, istərsə də çağdaş müstəqillik dövründə çap edilmiş bir sıra qaynaq xarakterli toplular (icmallar, xülasələr, hesabatlar, məcmuələr, statistik toplular və s.) da araşdırılmışdır. Monoqrafiyanın əsas qaynaq bazasını arxiv sənədləri təşkil etmişdir. Tədqiqatın yerinə yetirilməsi zamanı Azərbaycan Respublikası Milli Dövlət Arxivi, Azərbaycan Respublikası Milli Dövlət Tarix Arxivi, AMEA Salman Mümtaz adına Əlyazmalar İnstitutunun arxiv sənədlərindən istifadə edilmiş, Azərbaycan siyasətşünaslığı üçün ilk dəfə olaraq nadir materiallar aşkara çıxarılmışdır. Mirzə Fətəli Axundov adına Azərbaycan Respublika Milli Kütləvi Kitabxanasından, Azərbaycan Elmlər Akademiyasının, Bakı Dövlət Universitetinin, Azərbaycan Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasının kitabxanalarının nadir fondlarında saxlanılan çoxsaylı qaynaqlardan istifadə edilmişdir. Müəllif dövri mətbuatı nəzərdən keçirmiş, mövzu ilə bağlı problemin bir çox sahələri və istiqamətlərinə aydınlıq gətirilməsi üçün çoxsaylı faktiki materiallar, statistik məlumatlar və s. üzə çıxarmışdır.

Böyük əminliklə qeyd edək ki, Gülzar İbrahimovanın bu monoqrafiyası müəllifin gərgin elmi axtarışlarının nəticəsi kimi oxucularla yaradıcı və səmərəli bir görüşüdür. Monoqrafiyada Azərbaycanda dövlət qadın siyasətinin əsaslarını ictimai praktikanın reallıqları kontekstində təhlil etmiş, müasir tədqiqat üçün səciyyəvi olan müxtəlif metodlara müraciət etməklə mühüm əhəmiyyət kəsb edən nəticələr qazanılmışdır. Onun təqdim etdiyi bu kitab mühüm elmi-praktiki əhəmiyyət kəsb etməklə, Azərbaycanda dövlət qadın siyasətinin mükəmməl bir elmə çevrilməsi istiqamətində uğurlu bir addım, Azərbaycan qadınlarına və qadın hərəkatı tədqiqatçılarına dəyərli bir töhfədir.

**Hicran Kamran qızı Hüseynova**
*BDU-nun Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrasının müdiri, siyasi elmlər doktoru, professor*

# GİRİŞ

XX yüzilliyin sonlarında siyasi müstəqilliyini bərpa edən Azərbaycan xalqının öz suveren dövlətini yaratması bir sıra tarixi problemlərə yeni yanaşma tərzinin işlənib hazırlanmasını da zəruri etdi. Əldə olunmuş istiqlaliyyət həm ictimai-siyasi, həmdə ədəbi-mədəni-iqtisadi mühitdə köklü dəyişikliklərin bünövrəsini qoydu. Yeni yanaşma tərzi ilə milli dövlətçilik uğrunda mübarizədə və milli varlığın dərk edilməsi, qorunması prosesində xalqın mənəviyyatı və mədəniyyətinin, tarixi-mədəni keçmişinin öyrənilməsinə qoyulan qadağalar götürüldü. Bu isə tarixi-mədəni keçmişin milli faktorun formalaşmasının sosial mexanizminə çevrilməsinə, sosial dəyərlərin dərk edilməsi və qiymətləndirilməsi əsasında formalaşmasına təkan verdi. Yeni yanaşma tərzində mövcud ənənəvi problemlərin həlli zamanı digər məsələlərlə yanaşı, Azərbaycanda qadın məsələsinin iqtisadi, sosioloji, siyasi və hüquqi aspektləri diqqəti daha çox cəlb etdi.

Azərbaycanda qadın məsələsi və onunla bağlı yürüdülən siyasətin tarixi dövlətin tarixi ilə həmyaşdır. Tarixi şəraitdən asılı olaraq bu məsələ bəşər cəmiyyəti ilə birlikdə böyük, zəngin, keşməkeşli bir yol keçmiş, müxtəlif konfessiyalı toplumlarda müxtəlif durumlar yaşamış, nəticədə çağdaş günümüzdə bərabər hüquqlar və bərabər imkanlar zərurəti ilə davam etməkdədir.

Ümumiyyətlə, bütün dünyada, eləcə də Azərbaycanda qadın siyasəti, onun formalaşması prosesi uzun tarixi inkişaf yolu keçmişdir. Ayrı-ayrı tarixi dövrlər üzrə aparılan tədqiqatlar göstərir ki, qadının sosial-iqtisadi və ictimai-siyasi həyatda rolu və statusu son dərəcə müxtəlif olmuş, matriarxatdan patriarxata keçid bütövlükdə qadın statusunda ümumi bir dəyişikliyin əsasını, bünövrəsini təşkil etmişdir. Antik dövrdə tam əhatəli fəlsəfi bilik çərçivəsində siyasi nəzəriyyələr formalaşmış və inkişaf etmiş, bir sıra siyasi bilik üçün lazım olan anlayışlar yaranmışdı. Buna baxmayaraq antik cəmiyyətdə müəyyən istiqamətə malik qadın siyasəti yox idi. Lakin politeizmdən monoteizmə keçidlə məqsədyönümlü qadın siyasətinin tədricən təşəkkülü nəzərə çarpırdı. Qadın məsələsi ictimai-siyasi bir məsələ olduğundan qadın şəxsiyyətinin mahiyyəti, cəmiyyətin idarə edilməsində yeri və rolu, fəallığı, mədəniyyəti və şüurluluq səviyyəsi ən qədim





dövrlərdə fəlsəfi fikrin diqqət mərkəzində olmuş və bu barədə bir-birinə zidd fikirlər söylənmişdir [909, 161; 910, 22-23]. Antik əsr müəlliflərinin əsərlərində rast gəlinən ilk azərbaycanlı qadın tarixi şəxsiyyət kimi qədim dünyanın ən böyük hökmdarlarından biri sayılan Tomrisin fikirləri bu gün də aktualdır. O, bir hökmdar kimi müharibənin xalqa və dövlətə gətirdiyi acı fəlakətləri dərk etdiyindən sülh və əmin-amanlığın tərəfdarı idi. Cəmiyyətdəki ictimai statusu və fərqli rolları, fiziki gücü və zorakılığı ilə bir-birindən seçilən, münasibətlərində eyni bir dövrün etik-əxlaqi dəyərlərini pozitiv və neqativ istiqamətdə əks etdirən Tomris-Kir dixotomiyası Azərbaycanın ictimai fikir tarixində cinslərin bərabər hüquqluluğuna Şərq yanaşma tərzini açıqlayır [1004, 79, b.214].

Əsrlər boyu meydana çıxan hər bir yeni dində qadın şəxsiyyəti, siması tədricən arxa plana, cəmiyyətin bağlı qapılar arxasındakı məkanlarına sıxışdırılırdı. Bununla yanaşı, hər bir yeni yaranan dində özündən əvvəlki mifoloji ənənələrin bəzi ünsürləri saxlanılırdı. Azərbaycan ərazisində mövcud olan mifoloji etiqadlardan Tanrıçılıq fəlsəfəsində qadın ictimai, sosial və siyasi həyatda nisbətən azad, qadına münasibət daha mütərəqqi idi. Qadın cəmiyyətdə bir ana olaraq Tanrı dərəcəsində yüksək tutulur, müqəddəs hesab edilir, əqli və fiziki cəhətdən kişilərlə bərabər tutulurdular (gender!).

Uzun illər boyu antimüsəlman, antitürk ruhunda köklənmiş mürtəce xristian, qərb dairələri müsəlman ailəsində, müsəlman-türk mühitində qadının kölə vəziyyətdə yaşadığını müxtəlif məqsədlərlə və üsullarla əsassız olaraq hallandırmış, bu səbəbdən İslam dəyərlərini təhrif etmişlər. Əslində, cəmiyyətlərarası fərqliləşmələrin təzahürü və xarici dünyaya qarşı yeni bir düşüncənin ifadəsi olaraq, İslam dini mədəni canlanma şərtləri ilə yanaşı ictimai təşkilatlanmada da ciddi dəyişmələrə səbəb olmuş, nəticə etibarı ilə qadının ictimai vəziyyəti dəyişmiş, qadının mənəvi dəyərlərini yüksəldərək, onlara geniş haqlar vermişdir. «Qurani-Kərim»ə söykənən həqiqi İslam dünyasında, Qərb dünyasından fərqli olaraq qadın miras haqlarından yararlana bilmiş, Ana həmişə yüksək statusa malik olmuş, qadın namusu, şərəfi ailənin, nəslin şərəfi, namusu sayılmışdır.

Orta əsrlər müsəlman dünyasının ayrılmaz tərkib hissəsi olan Azərbaycanda qadının sərbəst həyatı və fəaliyyəti sahəsində mövcud

olan qadağa və məhdudiyyətlərə baxmayaraq Azərbaycan qadınının ədəbi-mədəni mühitdə mühüm sima kimi çıxış edə bilməsi onun elmi təfəkkürünün (xüsusilə ictimai-bədii təfəkkür tərzinin) dinamik inkişafını sübut edir. Feodal-ruhani əxlaq normalarının hökm sürdüyü Azərbaycanda Tanrıçılıqdan İslama keçiddə Tanrıçılıq dövrünün qadına münasibəti və «Qurani-Kərim»də qadına münasibət əxlaq normalarının formalaşmasında mühüm rol oynayırdı. Məhsətinin simasında bu dövrün mütəfəkkir düşüncəli Azərbaycan qadını öz zəmanəsinin mənfi əxlaq normalarına qarşı etiraz edir, onları cəsarətlə qamçılayırdı. Etirazın ictimai fonunda isə, azad cəmiyyət, azad insan, azad hüquq, azad qadın çağırışı ilə azad yaşamaq istəyi dururdu. Bu prosesdə qadının daxili psixoloji durumu onu öz hiss və duyğularının ifadəsində qərarlı edirdi. Onun ictimai dünyası sosial dünyası ilə üst-üstə düşmür, öz daxili harmoniyasını tarazlaşdırmaq üçünsə qadın şeir dilində:

Qadını kişiyə bağlayır kəbin,
Kəbinə qol qoyur şəriət, ayin.
Mənimsə kəbinim bir rübaidir,
Varmı bu kəbinə yol verən bir din [69, 318].

-deyə qadını cilovlayan qaydalara qarşı üsyan edirdi. Zəmanəsinin ictimai-bədii təfəkkürlü əks cinsindən geri qalmayan bu Azərbaycan qadını həm filosof, həm də hiss və fikir şairi kimi müasirlərinə ən yüksək əxlaqı keyfiyyətləri aşılamağa çalışır, qadın azadlığını cəsarətlə ifadə edir, iradə azadlığını hər şeydən üstün tutur, qadın hüquqlarının pozulmasına öz etirazını bildirirdi. Kamil şəxsiyyət olmaqla cins probleminin daha dolğun təsviri qadının (Məhsətinin simasında) etik-əxlaqi görüşlərinin əsasını təşkil edirdi.

Orta əsr Azərbaycanında qadın (insan) hüquqlarının müdafiəsi yazılı ədəbiyyatda mükəmməl surətdə əks olundu. Bu baxımdan Əlinin «Qisseyi Yusif» (1233-cü il) əsəri şifahi ana dilli, yazılı fars dilli ədəbiyyatın zəngin təcrübəsinə əsaslanaraq yazılan və simmetrik gender tərəzisində qlobal bir problemi: insan – dünya – zaman problemini əks etdirən sənət nümunəsinə çevirdi. Əsərdə Züleyxanın öz quluna aşiq olmasını etiraf etməsi feodal-ruhani əxlaq normalarının hökm sürdüyü Azərbaycanda cəsarətli bir addım, həm də bütün Şərqi lərzəyə gətirən qeyri-adi bir hadisə idi. Əli öz sözünü deməklə keçmişin haqsız qanunlarını, iyrənc adət və ənənələrini, çirkin cəhdlərini gələcəyi ilə üz-üzə qoyaraq improvizasiya edir, qadına öz mütərəqqi münasibətini bildirirdi: sevgi azaddır, ləyaqət, mənəvi təmizlik daxili və zahiri gözəlliyin vəhdətində qovuşur. Əsərdə Züleyxa ilə Yusifin ər-arvad kimi ilk görüşü milli əxlaq normalarına tabedir, Azərbaycanda əxlaq etikasının birbaşa bədii təsdiqidir. Sözsüz ki, siyasi elmin inkişaf tarixinin I mərhələsində bu Azərbaycanda cinslərin bərabər hüquqluluğunun Şərq yanaşma tərzini açıqlamaqla müxtəlif məsələlərdə Şərqin Qərbdən öndə getdiyini sübut edirdi.





Artıq XVIII-XIX əsrlərdə bədii təfəkkürlü yaradıcı aşıq və şair qadınlar sevgi-məhəbbət motivlərindən daha çox, dövrün ictimai bərabərsizliyinə, zülm və istismar problemlərinə diqqət verir, onlara qarşı haqq səslərini ucaldır, kəskin etirazlarını bildirirdilər. Onlar zamanla barışmır, mübarizlikləri ilə dövrün sosial ədalətsizliklərinə-şəxsiyyət, vicdan və qadın hüquqsuzluğuna qarşı çıxış edirdilər: saf sevgi, məhəbbət üzərində qurulan ailəyə sahib olmaq arzusunu öz yaradıcılıqlarında mübariz şəkildə ifadə etməklə zəmanəyə qarşı üsyana qalxırdılar. Onların məcburi qurulan ailə həyatına etirazları qadın – cəmiyyət problemlərinin özəlliklərini əks etdirirdi. Onların (Natəvanın simasında) həm də mədəni həyatda iştirakı dövrün qadına münasibətində etik qaydaların və ədəbiyyatın bəlli əxlaq ölçülərinə baxmayaraq Azərbaycan qadınının nisbətən müəyyən fəaliyyət azadlığına malik olduğunu sübut edirdi.

Azərbaycan qadınının ictimai siyasi həyatdakı roluna aydınlıq gətirəndə məlum olur ki, orta əsrlər boyunca qadın ikili funksiya daşıyaraq həm tabe olan və həm də tabe edən idi. Qadının alınıb-satıldığı mühitdə «sülh»ə xidmət edən izdivaclar dolayısı ilə həm də cinslərin bərabər hüquqlarını təsdiqləyirdi.

İslamın hələ ideologiya kimi tam bərqərar olmaması, dini qayda-qanunların ictimai şüurda tam möhkəmlənməməsi orta əsrlərdə kişi cinsi ilə bərabər qadın cinsinin də şah, hökmdar, sultan taxtına oturması imkanını yaradırdı. Bu qadınların sosial-ictimai, siyasi baxışları yaşanılan zamanın doğurduğu siyasi mənzərədən bəhrələnirdi (hökmranlıq və ərazi iddiaları, var-dövlətə hərislik, saraydaxili intriqalar, vətəndaşlıq mövqeyi və məqsədə çatmaq üçün bütün vasitələrdən istifadə). Bütünlükdə XII-XVI əsrlərin ictimai-siyasi şəraiti, cə-



Hörmətli oxucu,

“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.